***Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinə əsasən, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Vətənin müdafiəsi dövlətin mühüm funksiyalarından biridir. Hüquqi vasitələr hərbi intizamın, hərbi hüquq normalarının qorunmasına xidmət edir. Bu normalara əməl edilməsi və onların mühafizə olunması Silahlı Qüvvələrin şəxsi heyətində hüquq pozuntularının qarşısının alınmasına və onların aradan qaldırılmasına imkan yaradır.***

# Hərbi hüquq normaları Silahlı Qüvvələrdə hüquq pozuntularının qarşısının alınmasına xidmət edir

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinin 5-ci maddəsinin 2-ci abzasına uyğun olaraq, komandirlər (rəislər) hərbi qulluqçuların şəxsi keyfiyyətlərinin öyrənilməsinə, onların arasında Nizamnaməyə uyğun münasibətlərin yaranmasına, hərbi kollektivin birliyinə, tabeliyində olanların nalayiq hərəkətlərinin səbəblərini vaxtında müəyyən edərək, bunların qarşısını almağa, hərbi intizamı pozanlara qarşı dözülməz münasibət yaranmasına xüsusi diqqət yetirməlidirlər.

Hərbi intizamın, möhkəm hərbi hüquq qaydasının qorunub saxlanılması üçün komandirlərə (rəislərə) ciddi səlahiyyətlər verilib. Hər bir komandirin (rəisin) intizam hakimiyyəti İntizam Nizamnaməsinin müddəaları ilə müəyyən edilir. Bu səlahiyyətlərin həcmi dövlətin zəruri hesab etdiyi qədər müəyyənləşdirilib.

İntizam Nizamnaməsində göstərilir ki, Vətənin müdafiəsi mənafeyi komandiri (rəisi) məcbur edir ki, o tabeliyində olanlardan hərbi intizam və qayda-qanuna riayət edilməsini qətiyyətlə və möhkəm surətdə tələb etsin, qayda-qanunun hər hansı bir şəkildə pozulmasına yol verməsin.

Hərbi intizamın praktikası, hər şeydən əvvəl, qanunçuluğun tələblərinə uyğun olmalıdır. İntizam hakimiyyəti buna yalnız kifayət qədər əsaslar olduqda tətbiq edilməlidir. Unutmaq olmaz ki, tənbehlərin ancaq İntizam Nizamnaməsində nəzərdə tutulmuş növləri tətbiq edilə bilər. Digər tərəfdən, hər hansı bir qəti imkan tədbiri qanunla ciddi surətdə müəyyən edilmiş qaydada tətbiq edilməlidir.

İntizam tənbehi yalnız o halda əsaslandırılmış ola bilər ki, hərbi qulluqçu tərəfindən hərbi hüquq zidd əmələ, hərəkətə görə tətbiq edilə bilər. Yol verilmiş əmələ görə tətbiq edilən tənbeh (cəza) nizamnamə tələblərinin çərçivəsindən kənara çıxmamalıdır. Əks təqdirdə bu, şəxsi heyətin ümumi tərbiyəsinə, onun əhval-ruhiyyəsinə mənfi təsir göstərə bilər. Bu həm də komandirlərin (rəislərin) nüfuzuna xələl gətirə bilər.

Göstərmək zəruridir ki, intizam tənbehi fərdiləşdirmə prinsiplərinə əməl edilməsini tələb edir. Bu zaman hərbi qulluqçunun şəxsiyyətini, onun ümumi inkişaf səviyyəsini, psixoloji keyfiyyətlərini, habelə onun hərbi xidmətə münasibətini nəzərə almaq lazımdır.

Komandirlər (rəislər) tərəfindən tətbiq edilən hüquqi vasitələr, eləcə də onların tətbiqi qaydası və şərtləri hərbi qanunvericilik aktları ilə müəyyənləşdirilib. Hərbi qanunvericilik aktlarında müxtəlif kateqoriyalardan olan hərbi tənbeh tədbirlərinin görülməsinin qaydaları, eləcə də komandirlərin (rəislərin) səlahiyyətləri öz əksini tapıb.

Hərbi intizam tənbehlərinin tətbiq edilməsi üçün əsasların müəyyən edilməsi və onların tətbiqi hüquqi komandirlərə və digər birbaşa rəislərə həvalə edilib, çünki belə tədbirlərin tətbiqi səlahiyyətinə yalnız onlar malikdirlər.

İntizam mürəkkəb və çoxsaylı ictimai hadisədir. O, təkcə əxlaqi və siyasi deyil, həm də hüquqi kateqoriyadır.

İntizam dedikdə, cəmiyyətin hüquq və əxlaq normalarına, yaxud hər hansı bir təsisatın, qurumun tələblərinə uyğun olaraq tədbirlərin müəyyən davranış və rəftar qaydalarına başa düşülür. Təsadüfi deyildir ki, ictimai intizam cəmiyyətin normal fəaliyyətinin ən mühüm ümdə şərtidir. Bu baxımdan hərbi intizam ordunun yüksək əxlaqi saflığını, mənəvi möhkəmliyini və yüksək döyüş ruhuna malik olduğunu əks etdirən amildir.

Hərbi intizam hər bir döyüşçünün davranışını əxlaqi normalarla tənzim edən və ona nəcib mənəvi keyfiyyətlər aşılayan güclü bir vasitədir.

Beləliklə, hərbi intizam təbiəti bütövlükdə cəmiyyətə və ya konkret sosial quruma, yaxud hələ qurumun mütəşəkkil bir hissəsi üçün müəyyən edilmiş davranış qaydalarına tabe olmağı tələb edir. İntizamın xarakteri, onun mahiyyəti müəyyən edilmiş davranış və rəftar qaydalarına tabe olma motivləri və üsulları, intizama riayət edilməsindən irəli gələn əsas tələblərin məzmunu sosial-iqtisadi quruluşun özünün mahiyyəti və məzmunu ilə müəyyən məna kəsb edir.

Hərbi intizam normaları hərbi təşkilatın spesifikliyini əks etdirir. O, hərbi qulluqçularla hərbi xidmət arasındakı münasibətlərin xüsusiyyətini müəyyən edir.

Hərbi intizam normaları hərbi qulluqçuların bütün fəaliyyətin şamil olunur.

Hərbi intizamın spesifik cəhətlərindən biri də ondan ibarətdir ki, onun tələbləri praktik olaraq Silahlı Qüvvələrin bütün əsas sferasını əhatə edir. Hərbi intizam normaları dövlət tərəfindən müəyyən edilmiş münasibətləri tənzim və eyni zamanda da mühafizə etməklə hərbi qulluqçulara (onların rütbə və dərəcələrindən asılı olmayaraq) ordu üçün zəruri olan keyfiyyətlərin formalaşmasına yardım edir.

Hərbi intizam dövlət intizamının bütün digər növlərindən fərqlənir. Bu hər şeydən əvvəl, sosial institut kimi Silahlı Qüvvələrin özünəməxsus xüsusiyyətləri ilə bağlıdır. Hərbi münasibətlər ictimai münasibətlərin spesifik sahəsidir. Çünki hərbi qulluqçu da öz hüquqi statusuna görə başqalarından fərqlənir. O, adi vətəndaş deyil. O, vətənin müdafiəçisi, döyüşçüsüdür.

Qeyd edildiyi kimi, hərbi intizam dövlət intizamının digər növlərindən fərqlənir. Həmin fərqləndirici xüsusiyyətlərə aşağıdakılar daxildir:

**a)** hərbi intizam normaları hərbi qulluqçuların davranış və fəaliyyətini daha mükəmməl şəkildə reqlamentləşdirir. Dövlət intizamının digər növlərindən fərqli olaraq hərbi intizam vasitəsi ilə əmrlər verilir və yerinə yetirilir;

**b)** hərbi intizam qaydaları xidmətdən kənarda olan hərbi qulluqçuların da davranışına sirayət edir. Belə ki, məzuniyyətdə və ya qısamüddətli ezamiyyətdə olan hərbi qulluqçu hərbi intizamı gözləməyə, onun tələblərinə əməl etməyə borcludur;

**c)** hərbi intizam normaları hərbi qulluqçulara xüsusi tələblər verir. Bu tələblər dövlət intizamının digər növlərində müəyyən edilməmiş tələblərdir. Məsələn, hərbi qulluqçu hərbi andda sadiq olmalı, lazım gəlsə, canını da əsirgəməməlidir. O, nəinki özünün və silahdaşlarının, hətta komandirlərinin həyatını da öz həyatı bahasına qorumağa borcludur;

**d)** hərbi intizam normaları komandirlərə (rəislərə) tabeliyin - danışıqsız tabeliyin ən yüksək dərəcəsini nəzərdə tutur.

Məhz buna görə də tabe olmamaq əksər hallarda ən ağır hərbi cinayət kimi qiymətləndirilir.

Hər bir cəmiyyətin normal həyatı üçün müəyyən qaydaların mövcud olması və ictimai münasibətlərin nizama salınması zəruridir. Həmin nizamlayıcı qaydalara cəmiyyətin üzvlərinin davranışını müəyyən edən sosial normaların köməyilə nail olunur.

İctimai münasibətlər müxtəlif sosial normalarla (dini, əxlaqi, hüquqi normalarla, adət-ənənələrlə) tənzimlənir. Hüquqi məsuliyyət dedikdə Azərbaycan Respublikası Konstitusiyasının, qanunlarının, qanun qüvvəli hüquqi aktlarının tələblərinin icrasına dövlətin məcburetmə formasının verilməsi başa düşülür.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev cənabları gənclərimizə Azərbaycan Respublikasının Konstitusiyasını öyrənməyi tövsiyə edərək deyib: “Konstitusiyada hər bir vətəndaşın hüquqları və azadlıqları öz əksini tapıbdır, eyni zamanda hər bir vətəndaşın vəzifələri öz əksini tapıbdır. Vəzifələr isə şübhəsiz ki, hər bir vətəndaşın özünün üzərinə düşən borcdur, məsuliyyətdir”.

Konstitusiyanın 24-cü maddəsinə əsasən, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Hüquqlar və azadlıqlar isə hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifəsini də əhatə edir.

Konstitusiyanın 72-ci maddəsinə görə, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Qanunu bilməmək vətəndaşı məsuliyyətdən azad etmir.

Konstitusiyanın 9-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.

Azərbaycan Respublikasının Konstitusiyasının 76-cı maddəsi Vətənin müdafiəsini onun hər bir vətəndaşının müqəddəs borcu, qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməyi vətəndaşların əsas vəzifələrindən biri kimi müəyyənləşdirib.

Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsinə əsasən, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur. Hər bir şəxs dərk etməlidir ki, hüquq pozuntusuna yol verdikdə onun dövlət qarşısında məsuliyyət vəzifəsi yaranır və belə hallarda dövlət öz məcburetmə formalarını tətbiq etməkdə haqlıdır.

Hər bir demokratik cəmiyyətdə hüquqi məsuliyyətin sosial əhəmiyyəti onun dövlətin hüquqi əsasının ünsürlərindən biri olması ilə müəyyən edilir. Hüquqi məsuliyyətin iki məqsədi - ümumi və konkret məqsədi vardır. Ümumi məqsəd demokratik quruluşun şərtlərini hüquqi cəhətdən təmin etməkdən ibarətdir. Hüquqi məsuliyyətin konkret məqsədi - demokratik hüquq qaydasını pozuntulardan mühafizə və müdafiə etməkdən, vətəndaşların hüquqi cəhətdən tərbiyəsi, hüququ pozanları isə yenidən tərbiyə etməkdir.

Azərbaycan Respublikasının Konstitusiyası Vətənin müdafiəsini onun hər bir vətəndaşının müqəddəs borcu, qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməyi vətəndaşların əsas vəzifələrindən biri kimi müəyyənləşdirib.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına daxil olarkən hər bir vətəndaş Hərbi andı qəbul edir və andını pozarsa, Azərbaycan Respublikası qanunlarının tam ciddiyyəti üzrə məsuliyyət daşımağa hazır olduğunu elan edir.

Hərbi qulluqçuların hüquqi məsuliyyətinin hərbi xidmətdən irəli gələn xüsusiyyətləri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin fəaliyyətini tənzim edən qanunlarla, Hərbi and, hərbi nizamnamələr və digər hərbi normativ aktlarla (əmrlər, direktivlər, sərəncamlar və s.) müəyyən edilir. Həmin xüsusiyyətlərin ən mühümlərini nəzərdən keçirək:

- Hüquq pozuntularının (hərbi xidmətə əleyhinə olan cinayətlər, hərbi intizam pozuntuları) xüsusi dairəsi dövlət tərəfindən müəyyən edilir.
- Komandirlər (rəislər) tabeliklərində olan hərbi qulluqçuları hüquqi məsuliyyətə cəlb etmək üçün xüsusi səlahiyyətlərə malikdirlər.
- Komandirlərin (rəislərin) hərbi qulluqçulara tətbiq etdikləri hüquqi məsuliyyət tədbirlərinin icrasının xüsusi şərtləri müəyyən edilmişdir.

Hüquqi məsuliyyətin növləri aşağıdakılardır:

- İnzibati məsuliyyət: İnzibati hüquq pozuntusunu intizam pozuntusundan fərqləndirən cəhət ictimai qaydanı pozan davranışın hərbi xidmətlə bağlı olmamasıdır. Hərbi qulluqçular inzibati hüquq pozuntusuna görə inzibati məsuliyyətə cəlb oluna bilərlər.
- İntizam məsuliyyəti: İntizam məsuliyyəti hərbi intizam və ictimai qaydalar pozulduqda meydana çıxır. Hərbi qulluqçuların intizam məsuliyyətinə cəlb edilməsi qaydası və şərtləri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin intizam nizamnaməsi ilə tənzimlənir.

***Vüsal BƏYLƏROV***
***Azərbaycan Respublikası Hərbi Prokurorluğunun preventiv tədbirlər və təhqiqat şöbəsinin prokuroru, ədliyyə kapitanı***